# Fiziki tərbiyə dərslərində müəllimin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyəsi

**Zaur Hacıyev,**
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent əvəzi
**E-mail:** zaur-agsu@mail.ru

**Rəyçilər: Fərahim Sadıqov,**
pedaqogika üzrə elmlər
doktoru, professor

*Məqalə ümumtəhsil orta məktəblərinin fiziki tərbiyə dərslərində şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirilməsi probleminə həsr olunmuşdur. Məqalədə böyük öndər Heydər Əliyevin simasında şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirilməsinin elmi-pedaqoji mahiyyəti aydınlaşdırılır. Bu zaman milli kurikulum təliminə əsaslanaraq müəllimin kompetensiya imkanlarından istifadənin yolları da müəyyənləşdirilmişdir. Məqalədə göstərilir ki, fiziki tərbiyə müəllimlərinin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirilməsinə nail olmaq mümkündür.*

**Açar sözlər:** fiziki tərbiyə, idman məşğələləri, kompetensiya, müəllimin kompetensiya imkanları, Azərbaycan dövlətçiliyi, dövlətçiliyə sədaqət, kurikulum təlimi, milli kurikulum

**Ключевые слова:** физическое воспитание, спортивные закятия, компетенция, компетентные возможпости учителя, Азербайджанская чосуарственность, приверженность к чосударст венности, куррикулумиое обучение, национальный куррикулум

**Key words:** physical education, sports training, competitiveness, competence of the teacher, the statehood of Azerbaijan, devotion to statehood, curriculum training, national curriculum

Ölkəmizdə həyata keçirilən kurikulum təlimində fiziki tərbiyə-

nin imkanları daha modern şəkildə öz əksini tapır. Bu imkanlar içərisində fiziki tərbiyə müəllimlərinin rolu günün aktual tələbləri səviyyəsinə qaldırılır. Yəni fiziki tərbiyə məşğələlərində şagirdlərin şəxsiyyətyönümlülük səviyyəsini yüksəltmək üçün müəllim öz imkanlarından, səriştə və təcrübəsindən geniş şəkildə istifadə etməlidir. Bu zaman şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirilməsi də yer almalıdır. Milli kurikulumla bağlı direktiv sənədlərdə göstərilir ki, müəllimin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin həm fiziki, həm də mənəvi keyfiyyətlərinin yüksəldilməsi çox vacibdir. Kurikulumla bağlı materiallarda fiziki tərbiyə ilə bağlı şagird:

- hərəki qabiliyyətləri formalaşdıran oyunları və hərəkət komplekslərini icraedir, müəyyən edilmiş normativləri yerinə yetirir;
- hərəki vərdiş və bacarıqları formalaşdıran müxtəlif statik və dinamik hərəkətləri sadə üsullarla icra edir;
- idman oyunlarını, o cümlədən milli idman oyunlarını və onların növlərini təqdim edir;
- şəxsi gigiyena və təbii vasitələrlə orqanizmi möhkəmləndirmək qaydalarını izah edir;
- fiziki tərbiyə prosesində intizam və rejim qaydalarına əməl edir, birgə fəaliyyət bacarıqları nümayiş etdirir (1, səh. 25)

Birgə fəalliyyət bacarıqlarının birgə fəalliyyət etdirilməsi zamanı şagirdlərə dövlətçiliklə bağlı tövsiyələrin verilməsi onları ruhlandırır. Bu zaman böyük öndər Heydər Əliyevin simasında şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyəsi önə çəkilməlidir.

Orta ümumtəhsil məktəblərində IX-XI sinif şagirdlərinin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyəsinin təşkili yollarından biri də böyük şəxsiyyətlərin, görkəmli dövlət xadimlərinin simasında həyata keçirilən tərbiyə işi hesab olunur. Bunun üçün fiziki tərbiyə dərslərində və idman məşğələlərində şagirdlərin milli dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi üçün əsl örnək olan dövlət başçılarının həyat və fəaliyyətinə müraciət etmək məqsədəmüvafiq hesab olunur. Bu baxımdan son onilliklərdə Azərbaycanı məhv olmaq təhlükəsindən qoruyan, milli konstitusiyamızı yaradan, dövlətimizə ümumbəşəri imic qazandıran, onu hər cür fəlakətlərdən xilas edən, ümummilli lider Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyəti yuxarı sinif şagirdlərinin Azərbay-

can dövlətçiliyinə sədaqət ruhunda tərbiyəsi üçün əsl nümunə ola bilər. Məhz ona görə də fiziki tərbiyə dərslərində və idman məşğələlərində müəllimlər yeri gəldikcə ulu öndərin həyatı, fəaliyyəti, dövlət quruculuğu ilə bağli gördüyü işlər barədə şagirdlərə, xüsusilə yuxarı sinif şagirdlərinə məqsədyönlü, planlı və mütəşəkkil olaraq məlumatlar verməlidirlər.

Təcrübə və müşahidələr göstərir ki, IX-XI siniflərin fiziki tərbiyə müəllimləri və məşqçi müəllimləri bu məsələnin həllində uğurlu addımlar ata bilmir, belə məlumatların verilməsinin elmi-pedagoji istiqamətlərinin müəyyənləşdirilməsində çətinlik çəkirlər. Bunu nəzərə alaraq biz yarımfəsildə fiziki tərbiyə müəllimlərinə və məşqçi müəllimlərə məhz bu barədə istiqamət verməyi məqsədəuyğun hesab edirik. IX-XI siniflərdə fiziki tərbiyə dərslərini aparan müəllimlər hər məşğələnin əvvəlində və ya məşğələ arası şagirdlərə tənəffüs verildikləri kiçik bir müddət ərzində ulu öndərin müstəqil dövlətimizin qurucusu kimi fəaliyyətində mövcud olan ən zəruri epizodlardan örnəklərin şagirdlərin diqqətinə çatdırılması çox faydalı olar. Özü də bu epizodların müxtəlif səpgidə olması daha məqsədəuyğundur.

Məqsədyönlü, planlı, mütəşəkkil olaraq verilən bu məlumatların idmanla məhdudlaşdırılması elmi-pedaqoji cəhətdən düzgün sayılmır. Məsələn: Azərbaycan Respublikasında ... rəhbərliyi dövründə müxtəlif maneələr və çətinliklərlə qarşılşsa da, H.Əliyev həmin maneə və çətinlikləri dəf edərək ana dilimizin qorunub saxlanılmasına, dövlət dili kimi Azərbaycanın Konstitusiyasına (hələ SSRİ-vaxtında, 1978-ci il ) daxil edilməsinə nail olmuşdur. H.Əliyev bütün varlığı ilə 73-cü maddənin həyata keçirilməsinə çalışmışdır. O, respublikanın milli potensialını, imkanlarını hərəkətə gətirərək anadilli kadrların müxtəlif dövlət idarələrində mühüm yer tutmalarına şərait yaratmışdır (2, s.478). Belə faktların seçilməsi göstərir ki, ümummilli liderimiz hələ sovetlər dövründə Azərbaycan dövlətçiliyi uğrunda müxtəlif maneələrə sinə gərərək, doğma dilimizin dövlət dili kimi Ali Qanunumuzda bərqərar edilməsi ilə bağlı fədakarlıq göstərərək öz xalqına, onun dilinə, konstitusiyasına, anadilli kadrların dövlət idarələri şəbəkələrində yerləşdirilməsinə böyük hörmətlə yanaşmışdir. Uzaqgörən ulu öndərimiz yaxşı

bilirdi ki, bu dil sorağı minilliklərdən, neçə-neçə əsrlərdən gələn ağbirçək nənələrimizin, ağsaqqal atalarımızın yaratdıqları ağılarımızın, bayatılarımızın, nağıllarımızın, əfsanə və rəvayətlərimizin dilidir. Ümummilli liderimiz yaxşı başa düşürdü ki, bu dil Tomrisin, Babəkin, Cavanşirin, Dədə Qorqudun, Şah Xətainin dilidir. Nizaminin, Füzulinin, Həsənoğlunun, Sabirin, Səttar- xanın, Şeyx Məhəmməd Xiyabaninin, Seyid Cəfər Pişəvərinin, Məhəmməd Biriyanın danışdığı dildir. Bu dilin saflığını qorumaq azərbaycanlıların müqəddəs borcudur. Bu müqəddəs borca sadiq qalan Heydər Əliyev onu da yaxşı bilirdi ki, bu dil həm də Azərbaycan elmini yaradan dildir. Əsrlər boyu dilimizin kölgədə saxlanılması ucbatından indiki nəslin nümayəndələri həmin dövrün elimini, mədəniyyətini özündə daşıyan əsərləri oxuya bilmirlər. Onlar Əbdürrəhman Mərzban oğlu Bəhmənyar Əl Azərbaycani, Şihabəddin Sührəvəzdi, Səfiyyəddin Urməvi, Siracəddin Urməvi, Əbülqadir Marağı kimi Azərbaycan alimlərinin yazdıqları əsərləri orijinaldan oxuya bilmirlər. Haqlı olaraq Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə möhtərəm prezidentimiz H.Əliyevin dediyi aşağıdakı hikmətli kəlamları bilavasitə onun özünə şamil etmək gərəkdir. O, haqlı olaraq deyirdi ki, xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik adamlarının fəaliyyəti nəticəsində mümkün olur (2, s.479).

Belə məlumatları fiziki tərbiyə müəllimləri və məşqçi müəllimlər IX-XI sinif şagirdlərinə dil-ədəbiyyat müəllimlərinin köməyindən istifadə etməklə onların iştirakı ilə birlikdə çatdırsalar, daha yaxşı olar. Ona görə ki, Azərbaycan dilinin sintaksisi, nitq mədəniyyəti və üslubiyyat bölmələri üzrə bilik, bacarıq və vərdişlər qazanan IX-XI sinif şagirdlərinin bəziləri ana dilinin sirlərinə yiyələnməyə etinasızlıq göstərir, bəziləri isə ana dilimizin qorunması, dünyəvi dillər səviyyəsinə qaldırılması uğrunda mübarizə aparan dövlət xadimlərimizin xidmətləri barədə informasiyaya malik deyillər. Ona görə bu tipli məlumatları verərkən fiziki tərbiyə müəllimləri və məşqçi müəllimlər ədəbiyyat və digər humanitar fənləri tədris edən müəllimlərin gücündən istifadə etsələr, daha faydalı olar.

Bu, bir həqiqətdir ki, dili yaşadan və inkişaf etdirən xalq, xalqı yaşadan dil olsa da, hər bir

dilin inkişafı, zənginləşməsi və beynəlxalq nüfuz qazanmasına nail olmasında qüdrətli dövlət xadimlərinin xidmətləri misilsizdir. Bu baxımdan Azərbaycan mədəniyyəti tarixində iki böyük şəxsiyyətin adı qeyd edilməlidir. Bunlardan biri XVəsrdə yaşamış, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırıb ona dövlətçilik dili möhürü vuran Şah İsmayıl Xətai, ikincisi isə XX əsrin keçməkeçli dövründə yaşayan, Azərbaycan dilini beynəlxalq aləmdə diplomatiya dilinə, dövlət dilinə çevirən, xalqımızın tale ulduzu, parlaq günəşi, qüdrətli siyasətçisi, yenilməz sərkərdəsi, hörmətli prezidentimiz H.Əliyevdir (2, s.479).

Belə məlumatların şagirdlərə çatdırılmasının onların milli dövlətçiliyə sədaqət tərbiyəsi baxımından bir sıra üstünlükləri vardır. Birincisi belə məlumatlar IX-XI sinif şagirdlərinin öz ana dillərinə olan məhəbbət hislərini daha da gücləndirir. İkincisi onlar əsrlər boyu kölgəyə salınan, bir sıra əndişələrə düçar olan, əcnəbi dillərin təsirinə məruz qalan, ana dilimizin saflığı, təmizliyi uğrunda mübarizə aparan dövlət rəhbərinin həm savadına, səriştəsinə, həm də mübarizə qüdrətinə qibtə etməyə başlayırlar. Heydər Əliyevin dilimizə, mədəniyyətimizə, incəsənətimizə, elmimizə nəinki ehtiramla yanaşması, hətta mənəvi dəyərlərimizə, milli sərvətimizin hər bir nümunəsinə məhəbbət bəsləyərək onları göz bəbəyi kimi qoruması şagirdləri dövlət rəhbərimiz olmuş Heydər Əliyev fonemeninə olan duyğularına qol-qanad verir. Ona görə belə siyasi məsələlərlə bağlı ulu öndərin milli atributlarımız, milli mənafeimiz, milli dilimizlə bağlı apardığı mübarizənin bütün tərəfləri fiziki tərbiyə dərslərində və idman məşğələlərində yuxarı sinif şagirdlərinə çatdırılarsa, onların dövlərçiliyə olan rəğbət hissi yüksəlmiş olar.

H.Əliyev yorulmaq bilmədən Azərbaycn dilinin qorunması keşiyində durmuş, son illərdə "bəylərin" buraxdıqları səhvləri vaxtında görmüş, onların dil sahəsində apardıqları siyasətin yarıtmaz olduğunu kəskin tənqid etmişdir. 90-cı illərin əvvəllərində ana dilimizin adı ilə bağlı buraxılan nöqsanları .... H.Əliyev səbir və təmkinlə, zəngin faktlarla tarixi reallıq əsasında təhlil etmiş, 1992-ci ildə ana dilimizin adı ilə bağlı Milli Məclisin qəbul etdiyi məlum qərarın yanlışlıq və dolaşıqlıq yaradan səbəbləri müəyyənləşdirmişdir. Bu çox ciddi səhvin aradan qaldırılması vəzifəsinin yerinə ye-

tirilməsi də onun üzərinə düşmüşdür (2, s.479).

Əslində fiziki tərbiyə dərsləri çox hallarda şagirdlərin fiziki tərbiyəsinin formalaşdırılmasına xidmət edən dərslər kimi təhlil edilir. Unutmaq olmaz ki, fiziki tərbiyə dərsi də təlim prosesi hesab olunur. Əgər belədirsə, deməli, təlim prosesində şagirdlərə verilən didaktik materialları ümumpedaqoji prinsiplərə istinad etməklə ümumdidaktik üsulların köməyi ilə elə bir tərzdə vermək lazımdır ki, həmin didaktik materiallar şagirdlərin bilik, bacarıq, vərdişlər sistemini formalaşdırmaqla yanaşı, onların bir şəxsiyyət kimi hərtərəfli inkişafını təmin etməlidir. Təəssüf hissi ilə qeyd etməliyik ki, bu sırada fiziki tərbiyə dərslərinin adını çox nadir hallarda görmək olar. Bunun isə əsas səbəbi bəzi tədqiqatçıların, dərslik müəlliflərinin musiqi, təsviri sənət və fiziki tərbiyə dərslərini qabiliyyət tələb edən dərslər kimi məhdud səviyyədə təqdim etmələridir. Bir sıra alimlər, metodistlər adı çəkilən dərsləri fiziki tərbiyə estetik-bədii zövq aşılayan məşğələlər kimi təqdim edirlər. Onlar unudurlar ki, istər bədii zövq verən, istərsə də fiziki tərbiyə elementləri aşılayan dərslərin qarşısında duran vəzifələrdən biri də təhsilləndirici vəzifədir. Bu vəzifəyə görə fiziki tərbiyə dərslərinin fiziki tərbiyə elementləri aşılaması ilə yanaşı, müvafiq bilik, bacarıq və vərdişlər qazandırması, müəyyən elmi dünyagörüşü qazandırması və şagirdlərin bir şəxsiyyət kimi formalaşdırılmasını da təmin etməsi də vacib hesab olunur. Deməli, fiziki tərbiyə dərslərində şagirdlərin fiziki sağlamlığı ilə yanaşı onların ideya-siyasi tərbiyəsinin inkişaf etdirilməsi də vacibdir. Bu baxımdan onları Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirməkdən ötrü onlara dahi şəxsiyyətlərin, istedadlı, görkəmli dövlət xadimlərinin həyatından, xüsusilə onların dövlət, xalq, vətən naminə gördükləri örnək xarakterli işləri barədə məlumatların verilməsi çox önəmlidir. Bu baxımdan ulu öndər Heydər Əliyevin simasında yuxarı sinif şagirdlərinin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirilməsi ilə bağlı məlumatlara üstünlük verməyin əhəmiyyəti böyükdür.

H.Əliyevin şəxsi təşəbbüsü ilə 1995-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Elmlər Akademiyası Rəyasət Heyətinin binasında yaradıcılıq ittifaqları və birliklərinin alimlərinin iştirakı ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında dövlət

dilinin adı məsələsi geniş müzakirə olundu. Hörmətli Prezidentimiz müzakirədə iştirak edən alimlərin hamısının çıxış etmələrinə şərait yaratdı. Bu müzakirələr bir daha H.Əliyevin yüksək intellektual səviyyəsini, uzaqgörənliyini təsdiq etdi. O, çox məzmunlu nitqində Azərbaycan dilinin keçirdiyi zəngin tarixi yolu təhlil edərək, obyektiv reallığı qiymətləndirərək düzgün nəticə çıxardı. H.Əliyev demişdir: "Biz müstəqil dövlət kimi dünyada artıq öz yerimizi tutmuşuq. Ona görə də hansı qərarı qəbul edəcəyiksə, gərək bu, milli mənliyimizə, milli məğrurluğumuza toxunmasın. Nizaminin sözləri də bizim üçün əzizdir, Füzulunun sözləri də bizim üçün əzizdir, C.Məmmədquluzadənin, M.F.Axundovun sözləri də, Sabirin sözləri də bizim üçün əzizdir. Hamısı bizim üçün əzizdir. Amma bu gün reallıq var. Reallıq bütün bu tariximizin hamısından üstündür və bizim üçün gələcəyə bir yol açır..." (2, s.480).

Göründüyü kimi, ulu öndərin fikirlərindəki dövətçiliyimizə olan sədaqət amilləri çoxşaxəliliyi, bir sözlə, zənginliyi ilə diqqəti cəlb edir. Əgər bu zənginliyi şərtləndirən cəhətlərdən birincisi ulu öndərin elmə, elm adamlarına olan ehtiramıdırsa, ikincisi Azərbaycan dilinə olan intəhasız sevgisi, üçüncüsü isə klassiklərimizə olan dərin hörməti özündə əks etdirən və xalqımızı gələcəyə aparan düzgün yoldur. Ulu öndər bu düzgün yolu tutmaq və bu düzgün yolla əbədi getmək üçün dilimizin saflığını qorumaqla yanaşı, xarici dilləri də öyrənməyin vacib olduğunu tövsiyə edirdi:

H.Əliyevin çıxış və nitqlərində Azərbaycan dilinin dövlət dili kimi beynəlxalq nüfuzunun yüksəldilməsinə, gənclərin ana dili və xarici dilləri dərindən öyrənmələrinə xüsusi əhəmiyyət verilir (2, s.481).

Bu gün müstəqil dövlətimizin dilini qorumaq hamımızın müqəddəs borcudur. Bu işə isə şagirdlərin maraqlarını, meyillərini, arzu və istəklərini orta ümumtəhsil məktəblərində oxuduğu illərdən istiqamətləndirmək lazımdır. Təəssüflər olsun ki, Azərbaycan dili müəllimləri istisna olmaqla digər fənn müəllimləri bu işə ehtinasızlıq göstərirlər. İstər dəqiq elmlərdən, istər təbiət elmlərindən, istərsə də digər fənlərdən dərs deyən müəllimlər dərs dedikləri fənlərin nəinki Azərbaycan dili fənni ilə, hətta fiziki tərbiyə dərsləri ilə də əlaqəli tədrisinə əhəmiyyət vermirlər. Axı Azərbaycan dili bizim milli sərvə-

timizdir. Bu dilə bütün fənlərin tədrisində önəm verilməlidir.

Azərbaycan yazıçılarının X qurultayındakı "Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir" adlı nitqində ... H.Əliyev haqlı olaraq deyir ki, bu gün biz müstəqil dövlət kimi fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Əlbəttə, bu dil əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat təmiz dildir. Bu, bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq millət ola bilməz. Azərbaycan dili çox mükəmməl dildir, çox zəngin dildir, çox inkişaf etmiş dildir, böyük söz ehtiyatına malik dildir. Azərbaycan dili çox gözəl dildir (2, s.481).

Dilimizi milli sərvətimiz kimi sevən ulu öndərin dövlətimizin birinci atributuna olan hədsiz məhəbbəti onun özünə dərin məhəbbət qazandırır. Yuxarıdakı fikirləri yuxarı sinif şagirdlərinə çatdıran fiziki tərbiyə müəllimləri və məşqçi müəllimlər ulu öndərə olan sevginin, məhəbbətin üzərinə elə bir sevgi, məhəbbət əlavə etməlidir ki, həmin sevgi, məhəbbət gələcək nəslin təfəkkürünə, təxəyyülünə, yaddaşına əbədi həkk olunsun, onların təfəkkürünü zənginləşdirsin, təxəyyülünü əbədilik şölələndirsin. Fiziki tərbiyə müəllimləri və məşqçi müəllimlər ulu öndərimizin tələbələrə, tələbəlik illərinə, təhsil illərinə münasibəti barədə də məlumat verməlidirlər.

H.Əliyev 1997-ci ildə respublikamızın və xarici ölkələrin ali məktəblərinə qəbul olmuş tələbələrin bir qrupu ilə görüşündəki nitqində haqlı olaraq deyirdi ki, müasir həyat və dünyanın gələcəyi insanlardan daha çox bilik tələb edir. Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır. Buna görə də xalqımızın, millətimizin, ölkəmizin gələcəyi olan gənclər bilik, bacarıq və vərdişlərə dərindən yiyələnməli, müntəzəm olaraq elmi bilik və bacarıqlarını təkmilləşdirməlidirlər. Bunlarsız Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq çox çətin olar. Unutmayaq ki, XXI əsr sizin əsriniz, sizin dövrünüz olacaqdır. Siz və sizin kimi Azərbaycan gəncləri, yeniyetmələri, yüksək təhsilli insanları həmin əsrdə müstəqil, azad respublikamızı yaşadacaqsınız, inkişaf etdirəcəksiniz. Ona görə siz hər bir günün, saatın qədrini bilməli, təhsil dövründən səmərəli istifadə etmə-

lisiniz (2, s.482). Ulu öndərin bu kimi fikirlərini şagirdlərə çatdıran fiziki tərbiyə müəllimləri və məşqçi müəllimlər IX-XI sinif şagirdlərinə bir neçə tərəfli istiqamət vermiş olurlar. Çünki şagirdlərin bir qismi respublikamızın ali məktəblərinə qəbul olunmaq istəyirlər, bir qismi isə xarici ölkələrin ali məktəblərində oxumaq niyyətində olurlar. Bir qismi isə idmançı kimi Avropa, Dünya və Olimpiya oyunlarında istirak etmək arzusu ilə yaşayır. Fiziki tərbiyə müəllimlərinin və məşqçi müəllimlərin ulu öndərimizin yuxarıdakı fikirlərini səsləndirməsi, həmin fikirləri təhlil etməsi istər öz ali məktəblərimizə qəbul olmaq istəyən şagirdlərə, istər xarici ölkələrdə təhsil almaq arzusunda olan şagirdlərə, istərsə də idman nailiyyətləri qazanmaq arzusunda olan şagirdlərə sanki ulu öndərin etimadını təqdim etmiş olurlar. Şagirdlər isə ulu öndərin etimadını doğrultmaq üçün var qüvvələri ilə çalışmağa başlayırlar.

Təcrübə və müşahidələr göstərir ki, fiziki tərbiyə müəllimləri və məşqçi müəllimlər ulu öndərin idman, sağlamlıq, fiziki tərbiyə, idman nailiyyətləri ilə bağlı fikirlərini deməzdən əvvəl ümummilli liderimizin milli ideallarımız, milli-mənəvi dəyərlərimiz barədə dediklərini təhlilə cəlb etməklə daha faydalı işlər görmüş olurlar. Məsələn, ulu öndərin bu əsas ideyası barədəki fikirlərinə istinad edilməsi bu baxımdan çox faydalıdır.

Hazırda ölkəmizdə Heydər Əliyevin xatirəsinə həsr olunan turnirler, müsabiqələr, yarışlar keçirilir. Bu yarışlara gələn xarici idmançılara Heydər Əliyevin siyasi fəaliyyəti, dövlət quruculuğu, Azərbaycan dövlətçiliyinə göstərdiyi xidmətlər barədə fikirlər söyləyirlər. Həmin fikirlər əsasında didaktik materiallar, planşetlər, slaytlar hazırlayır və bunlardan fiziki tərbiyə dərslərində istifadə etməklə ulu öndər Heydər Əliyevin simasında şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirilməsinə kömək etmiş olurlar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq milli kurikulum materiallarından istifadə etməklə müəllimin kompetensiya imkanlarından faydalanmaqla fiziki tərbiyə dərslərində şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirilməsinin sistemi verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən fiziki tərbiyə müəllimləri, idman məşğələlərini aparanlar, habelə məşqçilər

və bu sahədə tədqiqat aparanlar istifadə edə bilərlər.

**Nəticə** olaraq deyə bilərik ki, fiziki tərbiyə məşğələlərində müəllimin kompetensiya imkanlarından istifadə etməklə şagirdlərin Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyələndirilməsinə nail olmaq olar.

**İstifadə olunan ədəbiyyat**

1. Gülər Hüseynova. Kurikulum təliminə praktiki baxış. Bakı, "Hədəfin nəşrləri", 2017

2. Sadıqov F.B. Pedaqogika. Bakı, Biznes Universitetinin nəşri, Bakı, 2006, 556 s.

3. Əlibəyzadə Elməddin. Azərbatcan xalqının mənəvi mədəniyyət tarixi (islamaqədərki dövr). Bakı, Gənclik, 1998

4. Həşimov Ə.S. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı, Maarif, 1970

5. Həşimov Ə.S., Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası. Bakı, Patronat, 1993

6. Əliyev A., Əliyev V., Qasımov Ə. Bədən tərbiyəsinin və idmanın idarə edilməsi və iqtisadiyyatı. Bakı, ADBTİA-nın nəşri, 2005

7. Quliyev B.S., Acalov E.F., Məmmədov H.N., Nəsrullah M.Ə. Bədən tərbiyəsinin tədrisi təcrübəsi. Bakı, Maarif, 1978

8. Quliyev B.S. Azərbaycan milli uşaq oyunları. Monoqrafiya. Bakı, Xəzər Universiteti, 2016

9. Quliyev D.Q. Azərbaycan idmanı müstəqillik illərində (1991-2012). Bakı, Təknur, 2013

**Заур Гаджиев,**

**Воспитание у учащихся приверженности и Азербайджанской государственности на уроках физического воспитания посредством использования компетентных возможностей учителя.**

**Резюме**

Статья посвящена проблеме физического воспитания у школьников приверженности и Азербайджанской государственности на уроках воспитания общеобразовательных средних школах. В статье вносится научно-педагогическая ясность в воспитание приверженности к Азербайджанской государственности на примере выдающегося лидера Гейдара Алиева. В то же время уточняются пути использования компетентных возможностей на основе обучения по национальному куррикулуму. В статье отмечается, что физическое воспитание у учащихся

приверженности к Азербайджанской государственности представляется целесообразным посредством использования учителем компетентных возможностей.

**Zaur Hajiyev**

**Upbringing of pupils in the spirit of loyalty to the Azerbaijani state by using the teacher's competence opportunities in physical education classes**

**Summary**

The article focuses on the issue of educating pupils in the spirit of loyalty to the Azerbaijani statehood in the physical education classes of general secondary schools. The article highlights the scientific-pedagogical essence of educating the pupils in the spirit of loyalty to the Azerbaijani statehood in the face of great leader Heydar Aliyev. At the same time, the ways to use the teacher's competence capabilities on the basis of national curriculum training were also identified. The article shows that using the capabilities of physical education teachers to gain the students' loyalty to the statehood of Azerbaijan is possible.